**Gələcəyin Təmin Olunması**
**Ətraf Mühit Problemləri**
**Baş Məqalə - Betti Bleyer**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 2.3 (Payız 1994)
© 2003. Azerbaijan İnternational

Oktyabrın 18-i Azərbaycanın Müstəqillik Günü və eyni zamanda Azərbaycanda Sovet İttifaqının dağıldığı bir gündür. Bu həmçinin çox keçilməz sayılan"dəmir pərdə"nin xarici dünyadan informasiya axınının gəliş-gedişinin qarşısını alma qabiliyyətini itirərək süqut etməsinin üçüncü il dönümüdür. Təəssüf ki, iş əvvəllər bilmədiyimiz ətraf mühit məsələlərinə gəldikdə onun bizə ziyan vurduğunu o vaxt bilmirdik. Bu ziyan indi də davam edir. Elə bir divar, sipər və ya coğrafi sərhəd yoxdur ki, ətraf mühitin zərərli təsirini özündə saxlasın. Belə ki, Azərbaycanın problemləri bizim onlardan nə dərəcədə xəbərimiz olmasından asılı olmayaraq bizim problemlərdir.

Faktiki olaraq Azərbaycanda hazırkı ətraf mühitin vəziyyəti haqda yalnız nadir rast gəlinən bir neçə qəzet və ya jurnal məqaləsindən başqa ingilis dilində heç bir material yoxdur. Keçmiş Sovet İttifaqının ekologiyaya aid nəşr olunan bəzi kitablarında çox nadir hallarda Azərbaycan müzakirə olunurdu. Sumqayıt şəhərinin SSRİ-də kimyəvi fabriklərin ən çox cəmləndiyi bir yer olmasına baxmayaraq, 300 səhifəlik bir kitabda yalnız bir səhifə, ən yaxşı halda isə iki səhifə Azərbaycana aid olurdu.

Biz ona görə bu nömrəmizi ətraf mühit məsələlərinə həsr etmişik ki, Azərbaycan hazırda Qərb konsorsiumu ilə neft müqaviləsi bağlamaq ərəfəsindədir—ən azı hər bir kəs bunun belə olacağına ümid edir (SOCAR bölməsinə bax. Səh. 18). Neft ətraf mühitin bərpa olunması və qorunması da daxil olmaqla Azərbaycanda hər bir sahənin inkişafı üçün açar rolunu oynayır. Bizcə, ətraf mühitin qorunması iqtisadi inkişafdan arxada deyil, onunla paralel həyata keçirilməlidir. Ətraf mühitin qorunması məsələləri artıq sonradan sonraya yürüdülən fikir olmamalıdır, o hər bir yeni proyektin ayrılmaz bir hissəsi olmalıdır.

May və iyun aylarında bu nömrə üçün Bakıda bu mövzu üzrə material toplayarkən tədqiqatımızı dəstəkləməyən yalnız bir qadına rast gəldik. O, Bakının yaxınlığındakı Balaxanı qəsəbəsində, 100 ildən çox neft çıxarılan bir yerdə yaşayırdı. "Siz belə şəkillər çəkirsinizsə, deməli Azərbaycanın dostu deyilsiniz," deyə o, şikayət etdi. "Niyə gözəl yerlərin şəkillərini çəkmirsiniz?" Bizim fotoaparatlarımız onun evindən 30 fut aralıda

yerləşən və çox güman ki, onun öz sağlamlığı üçün də təhlükəli olan "baş əyən uzunqulaq" - köhnə cırıldayan neft quyusunun düz yanında otlayan qoyunlara tuşlanmışdı. Ümid edirik ki, bu nömrəmiz həmin qadının səhv olduğunu sübut edəcək və bir çox oxucular bizim "gələcəyin təmin olunması"na və Azərbaycanın əvvəllər malik olduğu sağlamlıq və gözəlliyinin bərpa edilməsinə yönəldilən məqsədimizin dərinliyini başa düşəcək.

### Azərbaycan – Gözəl Diyar

Azərbaycanda hələ də qədim gözəl yerlər vardır. Sahəsinə görə kiçik olmasına baxmayaraq (Avstriya və ya ABŞ-ın Meyn ştatı boyda), Azərbaycanda 11 iqlim qurşağından 9-u mövcuddur. Nəticə etibarilə burada müxtəlif növ yerli bitki və heyvanat aləmi vardır. Buranın vaxtilə sağlam iqlimə, torpağa və suya malik olması özünü əhalinin uzunömürlülüyündə göstərir ki, bu da Azərbaycanı dünyada bu sahədə ən yüksək göstəricisi olan ölkələr sırasına çıxarır.

Bir çox sahələrdə Azərbaycan Sovet Respublikaları içərisində nisbətən üstünlüyə malikdir. Burada heç bir nüvə silahı sınaqdan çıxarılmamış, heç bir radioaktiv tullantı zibillikləri və heç bir plutonium-uran istehsalı və nüvə silahı zavodu olmamışdır.

### Ciddi Ekoloji Problemlər

Lakin Azərbaycan ətraf mühit problemlərindən azad deyildir, onun öz payına düşən ağır ətraf mühit problemləri vardır. Bunlardan ən ciddi olanı Bakıda təmiz suyun çatışmaması və ümumiyyətlə su qıtlığıdır. Neftin emalı və istehsalı həmişə nizamsız həyata keçirilir və Azərbaycanın dənizdə və quruda 10500 quyudan ibarət 51 neft sahələri vardır. Hətta bundan da qorxulusu kənd təsərrüfatı məhsullarının becərilməsində istifadə edilən zəhərli pestisidlərdən istifadə olunması və Sumqayıt tüstü borularından qarışıq zəhərli maddələrin havaya buraxılmasıdır. Xəzər dənizi də başağrısız deyil.

Çox güman ki, problemlərdən ən böyüyü ermənilərlə davam edən və tamamilə Azərbaycanın torpağında aparılan 6 illik müharibədir. Azərbaycan ərazisinin 20%-i ermənilər tərəfindən işğal edilmişdir və orada yaşayan bütün azərbaycanlılar həmin ərazini tərk etmişlər. Ermənilərin həmin ərazidə törətdikləri yanğın və basdırdıqları minalar insan, bitki və heyvanat aləminə məhvedici təsir göstərir. Ermənilərin işğalı nəticəsində 1 milyon qaçqının yanacaq üçün kəndlərdə meşələri qırmasından vurulan ziyanın əvəzinin ödəmək üçün ən azı onilliklər tələb olunacaqdır.

### Sovet Siyasətinin Ölümsaçan İrsi

Azərbaycanın ətraf mühit problemlərin əsası daha çox bu son 70 ildə aparılan istismarçı Sovet siyasəti dövründə qoyulmuşdur. Bu Sovetlərin təbiətin qorunmasına dair heç bir qanunvericiliyə malik olmaması demək deyildir. Onların kağız üzərində çoxlu belə qanunları var idi. Ancaq qanunların çoxu həyata keçirilə bilməyəcəyi qədər ciddi idi və buna görə də onlar ört-basdır edilir və onlara dair yalan danışılırdı. Ümumiyyətlə SSRİ-nin siyasəti istismar xarakteri daşıyırdı. 11 saat zonası boyunca uzanmış o əngin məkanda

üstünlük xammala verilir, onun təkrar dövriyyəsinə və işlənməsinə isə fikir verilmirdi. Onlar elə fikirləşirdilər ki, ehtiyatlar tükənməzdir. Təbiətə özü-özünün qayğısına qalmaq həvalə olunmuşdu. İnsan həyatı ilə hesablaşmadan ağır sənayeləşmə prosesi gedirdi. Proqramların müvəffəqiyyəti insan sağlamlığı ilə deyil, yüksək istehsalla ölçülürdü. Həmişə hər bir şeyin yüksək dünya standartlarına uyğun olması haqda rəvayətlər söylənilirdi—hətta ətraf mühitin çirklənməsi səviyyəsinin belə. Çoxları SSRİ-də hər bir şeyin normal olduğuna inanırdı.

### Çernobel Qəzası SSRİ-ni Sarsıtdı

Qərb Sovet İttifaqının sirlərinin açılmasını öz adına çıxmağı xoşlayır. Axı, 50-ci illərdən bu yana demək olar ki, bütün Qərb siyasəti Sovet totalitarizm sisteminə qarşı istiqamətlənmişdi. Dövlətlərarası mövcud bütün hədə-qorxulara və mövqelərə baxmayaraq xarici qüvvələr deyil, məhz daxildə ətraf mühitdən düzgün istifadə olunmaması nəticədə bu əzəmətli sistemin dağılmasına gətirib çıxardı. Tarix də sübut edir ki, Çernobel hadisəsi SSRİ-yə son ölümcül zərbə vurdu. Təbiət istismar edildikdə çox amansız və rəhmsiz olur. 1986-cı il aprelin 26-sı gecəsi rəsmi məlumata əsasən yalnız 31 nəfər reaktiv alovla mübarizədə həlak oldu. Lakin o vaxtdan bəri 15000 adam vəfat etmiş, Ukrayna və Belarusiyada isə ən azı 200000-250000 uşaq ağır xəstədir. Bu fəlakət tamamilə gizli saxlanıldı. Uşaqlar nukleidlərlə nəfəs alaraq təhlükəyə məruz qalaraq küçələrdə oynamaqda davam edirdilər. Heç bir dövlət məmuru belə bir təhlükənin olması barədə xəbərdarlıq etmirdi.

Təəssüf ki, hətta 8 il keçdikdən sonra da Çernobel hadisəsinin təsirləri hələ də bitməmişdir. İnsanlar hələ də bunun təsirindən həyatlarını itirməkdə davam edir və zaman keçdikcə bu itkinin sayı daha da artacaqdır (Ukrainian Weekly, Roman Voronovyez, 5 dekabr, 1993).

Sovet İttifaqının heç bir yerində insanların nə baş verdiyindən xəbərləri yox idi. Televiziyada və ya hər hansı digər mətbuat orqanında heç bir məlumat verilmir və problemin ciddiliyi barədə xəbərdarlıq edilmirdi. İnsanların radioaktiv partlayışın nə demək olduğu haqda heç bir məlumatı yox idi. Yalnız Qorbaçovun “qlasnost” adlanan siyasəti nəticəsində Çernobel haqda həqiqət üzə çıxmağa başladı. İnsanlar bu məlumatı aldıqdan sonra onların bu quruluşa olan inamları alt-üst oldu. Artıq insanlar Sovet İttifaqının onların maraqlarına xidmət etdiyinə inamlarını itirdilər və beləliklə bu da özünə xidmət edən diktatorluğu sona çatdırdı.

### Azərbaycanın Ekoloji Durumu Çıxılmaz Vəziyyətdədir

Sovet İttifaqı dağılsa da Azərbaycan üçün çoxlu problemlər miras qoymuşdur ki, onları müharibə və yaranan iqtisadi böhran ərəfəsində həll etmək çox çətindir. Azərbaycanın ətraf mühit sahəsində çalışan mütəxəssisləri belə etiraf edir ki, onlar “ötən illər ərzində koma vəziyyətində” olmuşlar. Azərbaycan Yaşıllıq Hərəkatından Əli Güldostu bu çətin vəziyyəti bu cür təsvir etdi: “Bizdə qaymaq dolu bir qabın içinə düşən iki qurbağa haqda bir nağıl var. Onlardan biri oradan çıxa bilmədiyini görüb daha bayıra çıxmağa cəhd

göstərməkdən əl çəkir və qabın dibinə düşür. O biri isə bacardığı yeganə bir işi etmək - üzmək qərarına gəlir. Belə ki, o, var qüvvəsi ilə işə başlayır və qaymağı o qədər çalxalayır ki, qaymaq yağa çevrilir və o, bayıra çıxır." Bu yaxşı sonluqlu bir nağıldır. Lakin Azərbaycanda ətraf mühit sahəsində çalışanlar üçün isə bu günlər vəziyyət elə də asan deyil. "Bizim problemimiz," Güldostu deyir, "odur ki, biz nəyə düşdüyümüzü bilmirik. Bilmirik suya düşmüşük, yoxsa qaymağın içinə. Hazırda heç kim ətraf mühit məsələlərinə diqqət yetirmir. Hətta bilmirik ki, mənəvi cəhətdən onları bu məsələlərə fikir verməyə sövq etmək düzgün olardı, ya yox. Həyatın bu qədər ağır keçdiyi bir şəraitdə və insanların yaşamaq üçün çətinliklə çörək əldə etdikləri bir vaxtda biz ağac əkmək haqda necə danışa bilərik. İndi bizim üçün çox çətin bir dövrdür."

**Yeni Layihələr İrəli Sürülür**

Xoşbəxtlikdən Azərbaycanda problemlərdən bəzilərinin həll edilməsi üçün bir neçə layihə irəli sürülür. Pennzoil və ARDNŞ şirkətləri havaya buraxılan təbii qazın artıq qarşısını almışlar ki, bu da qlobal təhlükəni azaldır; Brown & Root Bakının su probleminin ən yaxşı həll yolunu tədqiq edir, Dünya Bankı isə bunu dəstəkləməyi öhdəsinə götürmüşdür. Kaiser Aluminum Sumqayıtdakı Alüminium zavoduna texnika gətirəcəkdir ki, bu da zəhərli tullantıları həddindən artıq azaldacaqdır. Birləşmiş Millətlər Təşkilatı isə Sumqayıtda kimyəvi zəhərlənməni azaldacaq hərtərəfli plan hazırlamaqda yardım edəcəkdir.

**Tövsiyyələr**

Ancaq bununla belə hələ görüləsi işlər çoxdur və beynəlxalq ictimaiyyət bu sahədə ruhlandırma işində, mütəxəss, avadanlıq və yardımla təmin etmək baxımından çox iş görə bilər. Aşağıda bəzi ən əsas edilə biləcək təkliflərr verilmişdir:

1. Əlaqə və kordinasiya. Ətraf mühit elmlərinə müfəssəl və səlis yanaşma Azərbaycan daxilində və həmçinin ondan kənarda rəsmi dairələr, alimlər, mühəndislər, ətraf mühitlə məşğul olan qruplar arasında geniş əlaqə tələb edir.

2. Yoxlama: standartlaşdırma. Bir şeyin nə dərəcədə pis sındığını bilmədiyin halda onu təmir etmək çox çətindir. Büdcələri olmadığından alimlər problemlərini lazımı şəkildə müəyyən edə bilməmişlər. Havanın, suyun, torpağın çirklənməsinin yoxlanması işinin beynəlxalq standartlar tərəfindən təsdiq edilə biləcək şəkildə mütəmadi və sistematik şəkildə aparılması tələb olunur.

Ətraf mühit məsələlərinin öyrənilməsində güclü alət vaxtaşırı baş verən dəyişikliklərin öyrənilməsi bacarığıdır. Bunu etmək üçün təhlil metodlarının və inamın dəqiqlik baxımından davamlılığı olmalıdır. Ümumiyyətlə əvvəllər yığılan "rəsmi" qeyri-dəqiq məlumat bazasına bir az inam əlavə edilə bilər.

3. Təlim və məlumatlandırma. Ətraf mühitə vurulan zərərin bərpa olunması üçün ən böyük potensial ayrı-ayrı şəxslərin vəziyyəti yaxşılaşdırmaq işində nə edə biləcəkləri haqda

məlumatlandırma işi aparmaqdır. Yalnız bir-iki şəxsdənsə, onların kollektiv surətdə gördükləri işlər həqiqi dəyişikliyə səbəb ola bilər. Azərbaycanlılarda həmişə öz problemlərini həll etməyi hökumətə həvalə etmişlər. Həqiqi dəyişikliklər insanlar ətraf mühitin korlanması təhlükəsi barədə kifayət qədər məlumatlandırıldıqdan və məsuliyyətləri öz əllərinə aldıqdan sonra baş verəcəkdir.

4. Çirkləndirməyə görə cərimə. Ətraf mühitə vurulan zərərin kontrol edilməsi və monitorinqi üçün ödəmə və cərimə təyin edən qanunlar və müəyyən vasitələrlə Respublikanın ətraf mühit işi üçün fondun təşkil olunmasına ehtiyac vardır. Həmçinin ətraf mühiti uzunmüddətli mühafizə etmək üçün sərmayə qoyan şirkətlər üçün güzəştli vergi işlənib hazırlanmalıdır.

5. Birgə dövlətlərarası öhdəliklər. Regional problemlərin regional orqanlar tərəfindən həll edilməsinə ehtiyac vardır. Azərbaycan çayları öz mənbəyini Dağıstan, Gürcüstan və Ermənistandan götürür. Bu sulara axıdılan zəhərli maddələrin qarşısının alınması və nəzarət edilməsi üçün yollar axtarıb tapılmalıdır.

Həmçinin Xəzər dənizi hazırda 4 müstəqil dövlət—Türkmənistan, Qazağıstan, Rusiya, Azərbaycan və İran tərəfindən istifadə edilir. Heç bir ölkə balıqların həddindən çox ovlanması, zəhərli tullantılar və ya onun səviyyəsinin qalxması ilə əlaqədar problemləri təklikdə həll edə bilməz. Bütün bu dövlətlərdən ibarət dövlətlərarası bir agentlik yaradılmalıdır. İran burada yeganə qeyri keçmiş Sovet dövləti olduğuna görə kənarda qoyulmalı deyildir. İran bu işə çox töhfə verə bilər, belə ki, o, bu regionda çoxu Qərbdə təhsil almış yüksək ixtisaslı alimləri olan əsas ölkədir. Bundan başqa onların Xəzərin müdafiəsi üzrə illərdən bəri topladdığı təcrübələri vardır.

## Qlobal Əlaqə

Ətraf mühit məsələləri tarixi və coğrafi cəhətdən qlobal məsələlərdir. Beynəlxalq ictimaiyyət kənarda boş-boşuna dayanıb Azərbaycana öz problemlərini həll etməli olan çox uzaqda yerləşən kiçik bir ölkə kimi baxa bilməz. Qərb totalitarizmlə mübarizəsində etdiyi kimi qlobal ətraf mühit məsələlərinin həllində də eyni enerji ilə çalışmalıdır. İnsanın ətraf mühiti korlamaqla özü özünü məhv etmək qabiliyyəti və həvəsi Sovet sistemindən daha qorxuludur. ABŞ-ın (Amerika Birləşmiş Ştatlarının) vitse-prezidenti Albert Qorun dediklərindən sitat gətirək: "Ətraf mühitin müdafiəsi mərkəzi təşkiledici prinsip olmalıdır—hər bir siyasətin və proqramın, qanun və institutun, hər bir saziş və ittifaqın, taktika və strategiyanın, plan və hərəkətlərin könüllü surətdə həyata keçirilməsinə razılaşmalı, qısası, ətraf mühitin pozulmasını dayandırmaq, və ekoloji sistemimizi qorumaq və yetişdirmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır."

İndiki ABŞ administrasiyası bu vaxta qədər olanların içərisində ətraf mühit sahəsində olduqca bilikli və bu sahədə ən çox narahatçılıq keçirənidir. Belə ki, ABŞ qanunverici orqanları kor-koranə hərəkət etmiş və ya bəlkə də bu sahədə lazımi qədər biliyə malik

olmadığından ətraf mühitlə bağlı məlumatlandırmada və qlobal baxışda olan bu addımlara zidd olan bir siyasət həyata keçirmişdir.

1992-ci ildə Konqres Sovet İttifaqının keçmiş dövlətlərində demokratiyalaşma prosesinə yardım etmək üçün Azadlığa Dəstək Aktı (Freedom Support Act-FSA) qəbul etdi. Ancaq Azərbaycan dünyada ən çox qaçqını olan bir ölkə olduğuna baxmayaraq, erməni lobbisinin təkidi nəticəsində humanitar və tibbi yardım almaq hüququndan məhrum edilən yeganə dövlət kimi siyahıdan çıxarıldı.

Lakin bu qanun ətraf mühit sahəsinə də öz təsirini göstərmişdir. Belə ki, ABŞ hökuməti bu ölkəyə hər hansı bir yardım edilməsini qadağan etmişdir. Bu yardımlar isə Azərbaycanın "gələcəyini qurmaq" işində çox böyük töhfə verə bilərdi. Bələdçilik etmək, təlim, mütəxəssis mübadiləsi, təhsil mübadiləsi, təşəbbüs göstərmək və sınaq üçün avadanlıqla təmin etmək kimi işlərin heç biri qanuni deyil. Mahiyyət etibarilə ABŞ maraqları olan və demokratiya və bazar iqtisadiyyatına keçid dövründə olan bu regionun yardıma ehtiyacı olduğunu car çəkdiyi halda burada təsir göstərmək və siyasət yürüdə bilmək sahəsində özü öz əl-qolunu bağlayır. Hələ də bu respublikalarda demokratiya və azad bazarın kök sala biləcəyi haqda heç bir zəmanət yoxdur. Bir çox qəddar qüvvələr bu prinsiplərə qarşı işləyir. Mənəvi cəhətdən ABŞ-ın kənarda dayanıb baxması düzgün deyil. Onun belə laqeydliyi qarşısıalınmaz nəticələrə səbəb ola bilər.

Bu qadağa götürülənə kimi ABŞ Azadlığa Dəstək Aktı Azərbaycanlılar və beynəlxalq ictimaiyyət tərəfindən həmişə Azadlığı "inkar" aktı kimi baxılacaq. Ekologiyanı və ətraf mühiti qorumağa gəldikdə heç bir geosiyasi sərhəd olmamalıdır.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova